*Qeyri-rəsmi tərcümə*

# "MDB iştirakçısı olan dövlətlərin gənc memarlarının iştirakı ilə memarlıq və şəhərsalma müsabiqəsi"nin Şərtləri və Proqramı

## MÜSABİQƏNİN ŞƏRTLƏRİ

### 1.1. Ümumi müddəalar

1.1.1. Bu Şərtlər və Proqram, MDB Hökumət Başçıları Şurasının 29 may 2020 -ci il tarixli qərarı ilə təsdiq edilmiş 2021-ci ildə Müstəqil Dövlətlər Birliyində memarlıq və şəhərsalma İlinə həsr olunmuş tədbirlər planına uyğun olaraq MDB üzvü olan dövlətlərin gənc memarlarının iştirakı ilə iki nominasiya üzrə keçirilən açıq memarlıq və şəhərsalma müsabiqəsinin (bundan sonra Müsabiqə) təşkili və keçirilməsi qaydasını və müsabiqədə iştirak edən subyektlərin (təşkilatçı, iştirakçılar, Müsabiqə Münsiflər heyəti, Ekspert şurasının üzvləri) hüquq və öhdəliklərini müəyyən edir.
1.1.2. Müsabiqə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03.02.2021-ci il tarixli 98s nömrəli "Beynəlxalq, milli və digər oxşar tədbirlər üçün 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin bölgüsü haqqında" Sərəncamının 10.3-cü bəndinə uyğun olaraq keçirilir.
1.1.3. Müsabiqənin maliyyələşmə mənbəyi: Azərbaycan Respublikasının 2021-ci il büdcəsi. Paraqraf 1.2.9: "Digər beynəlxalq fəaliyyətlər". Məqsədli büdcə fondu: 224110 "Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi".
1.1.4. Müsabiqənin şərtlərinə əsasən yarışmanın qalibləri üçün pul mükafatı nəzərdə tutulur.

### 1.2. Müsabiqənin məqsədi

Müsabiqənin keçirilmə məqsədləri:
– Kənd yerlərində həyat səviyyəsinin və xidmətlərin əlçatanlığının yaxşılaşdırılması, şəhərlərlə kənd arasındakı fərqlərin azaldılması;
– gənclər arasında şəhərsalma və memarlığın peşə və incəsənət olaraq təbliği;
– ictimaiyyətin diqqətinin şəhərsalma və memarlığın əhəmiyyətinə və imkanlarına yönəldilməsi.

### 1.3. Müsabiqənin obyektləri və nominasiyaları

Müsabiqənin obyekti inkişaf potensialına malik 200 hektar şərti boş, dağətəyi və düzənlik ərazidir.
Müsabiqə 2 nominasiya üzrə keçirilir:
- <u>Şəhərsalma</u> üzrə nominasiya: **"500 ailə üçün nümunəvi kənd yaşayıq məntəqəsinin planlaşdırma layihəsi"*;***
- <u>Memarlıq</u> üzrə nominasiya: **"Çoxfunksiyalı təyinata malik müasir təhsil və sosial mərkəzin layihəsi".**
***Müsabiqənin predmeti -*** Müsabiqə iştirakçıları müsabiqə təklifini bir-biri ilə əlaqəli və təfərrüatlı şəkildə rekreasiya zonaları və abadlaşdırma elementləri işlənilmiş, ərazinin/sahənin konseptual baş planı şəklində tərtib edərək hazırlamalı və təqdim etməlidirlər. Layihələr orijinal adlara malik olmalıdır.

### 1.4. Müsabiqənin növü

Müsabiqə açıq formatda, bir mərhələ üzrə keçirilir.

**1.5. Müsabiqənin təşkilatçısı**

**Müsabiqənin təşkilatçısı:**

Müsabiqənin təşkilatçısı rolunda Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Azərbaycan Respublikasının Memarlar İttifaqı ilə birlikdə çıxış edir. Müsabiqə Azərbaycan Respublikası Memarlıq və İnşaat Universitetinin iştirakı ilə təşkil edilir.

**Təşkilatçının ünvanı:**

Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1014, Füzuli küç., 65.

**Təşkilatçının vəzifələri və səlahiyyətləri:**

- Müsabiqə sənədlərinin hazırlanması;
- Müsabiqənin keçirilməsi proseduruna riayət olunmasına nəzarət;
- Müsabiqə iştirakçıları və müsabiqənin keçirilməsində iştirak edən şəxslərlə əlaqənin təşkil edilməsi;
- Müsabiqə orqanlarının işinin təmin edilməsi;

**Vəzifələrinin yerinə yetirilməsi çərçivəsində təşkilatçı aşağıdakı hərəkətləri yerinə yetirir (məhdudiyyətsiz):**

- Müsabiqənin keçirilməsi ilə əlaqədar bildirişlər və materialları dərc edir;
- Namizədlərə Müsabiqə sənədlərini təqdim edir;
- Namizədlərdən və İştirakçılardan gələn məlumatları, sənədləri və materialları qəbul edir;
- Namizədlərdən və Müsabiqə iştirakçılarından gələn sualları qəbul edir və bu suallara cavab hazırlayır;
- Münsiflər heyəti və Ekspertlərlə qarşılıqlı əlaqəni təmin edir;
- Müsabiqə ərizələrini, təkliflərini yoxlayır, ərizələrin və təkliflərin tərkibi, habelə aşkar edilmiş uyğunsuzluqlar barədə Hesabatlar şəklində məruzələr hazırlayır və Münsiflər Heyətinin baxılmasına təqdim edir;
- Münsiflər heyətinin iclasları üçün material hazırlayır və (və ya) materialların hazırlanmasını təşkil edir;
- Münsiflər heyətinin iclaslarını çağırır və təşkil edir;
- Münsiflər heyətinə, Ekspert Şurasına Müsabiqə Sənədlərinin müddəalarını izah edir;
- Münsiflər heyətinin iclaslarında səsləri sayır;
- Namizədlərə və İştirakçılara Müsabiqə Sənədlərinin müddəalarını izah edir;
- tanışlıq seminarı təşkil edir;

Müsabiqənin Təşkilatçısı rəsmi internet səhifəsində Müsabiqənin elan edilməsini təmin edir.

**Müsabiqə elan edilərkən aşağıdakı məlumatlar göstərilir:**

- Müsabiqənin məqsəd və vəzifələri;
- iştirakçıların işlərinin təqdim edilmə vaxtı və qaydası;
- Müsabiqə iştirakçılarına olan tələblər;
- müsabiqə layihələrinin qiymətləndirilməsi qaydası;
- mükafatın miqdarı və forması;
- Müsabiqənin keçiriləcəyi yer;
- Müsabiqənin məsul katibinin əlaqə məlumatları (telefon, e-poçt);
- Müsabiqə Münsiflərinin və Ekspert Şurasının iş qaydası;
- müsabiqəyə təqdim edilmiş layihələrin sərgisinin təşkili və keçirilməsi qaydası.

**1.6. Müsabiqə iştirakçıları**

Müsabiqədə iştirak edə bilərlər:

– MDB ölkələrinin gənc memarları Müsabiqədə MDB ölkələrinin gənc memarları (müsabiqədə iştirak etmək üçün müraciət edən zaman yaşı 35 də daxil olmaqla), MDB-nin ixtisaslaşmış universitetlərinin tələbələri iştirak edə bilərlər.
– MDB-nin ixtisaslaşmış universitetlərinin tələbələri.
Müsabiqədə həm fərdi, həm də qrup şəklində (5 nəfərə qədər) iştirak mümkündür. Komanda heyətinin fənlərarası tərkibinin olması, onların daxilində sosioloqların, iqtisadçıların, nəqliyyat mütəxəssislərinin və s. iştirakı müsbət qarşılanır, lakin zəruri şərt deyildir.

**1.7. Müsabiqənin keçirilmə müddəti və qaydası**

| Müddət | Tədbir |
|---|---|
| 01.09.2021 | Müsabiqənin elan edilməsi |
| 01.10.2021 | Müsabiqədə iştirak üçün müraciətlərin qəbulu |
| 20.10.2021 | Layihələrin təqdim olunması |
| 25.10.2021 | Müsabiqə layihələrinin ekspertizası, onların müzakirəsi və rəylərin hazırlanması |
| 29.10.2021 | Müsabiqənin yekunu |

1.7.1. Müsabiqədə iştirak etmək üçün qeydiyyat forması (Əlavə 1) 01 oktyabr 2021-ci il tarixindən gec olmayaraq sabina.iskenderova@arxkom.gov.az və ya konkurs@arxkom.gov.az e-poçt ünvanlarına göndərilməlidir.
1.7.2. Qeydiyyat iştirakçının bu Qaydalar və müsabiqənin iştirak şərtləri ilə razılaşdığını bildirir.
1.7.3. Qeydiyyatdan uğurla keçdikdən sonra formanı doldurarkən qeyd edilmiş e-poçt ünvanına təsdiq göndəriləcəkdir.
1.7.4. İştirakçı hər bir nominasiya üzrə yalnız bir təklif təqdim etmək hüququna malikdir.
1.7.5. Müsabiqə təklifi verərkən iştirakçı fərdi məlumatların işlənməsinə yazılı razılıq verir.
1.7.6. Müsabiqənin qalibləri ən yaxşı işlərin açıq təqdimatından sonra münsiflərin yekun iclasında müəyyən ediləcək.
1.7.7. Sözügedən Müsabiqə haqqında bütün məlumatlar, xəbərlər və elanlar Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin və Azərbaycan Memarlar İttifaqının rəsmi saytında yerləşdirilir (https://arxkom.gov.az və https://www.uaa.az).
1.7.8. Təşkilatçı, texniki tapşırıqlara uyğun olmayan Konsepsiyaları nəzərdən keçirməmək, şərh etməmək və ya dərc etməmək hüququnu özündə saxlayır.
1.7.9. Ekspert Şurası müsabiqə təkliflərini Müsabiqənin meyarlarına uyğunluğunu yoxlayır.
1.7.10. Münsiflər heyəti finalçıların qısa siyahısını tərtib edir və üç qalib seçir, qalan finalçılara azalan ardıcıllıqla sıra nömrələri verilir.

**1.8. Müsabiqənin mükafat fondu**

Müsabiqədə iştirak ödənişsizdir.
Müsabiqədə iştirak edən hər bir iştirakçı üçün mükafat nəzərdə tutulmur.
Ən yaxşı layihələr mükafatlandırılacaq və təşkilatçıların kütləvi informasiya vasitələrində dərc olunacaqdır.
İki nominasiya üzrə yarışmanın ümumi mükafat fondu 40 000,00 ABŞ dolları təşkil edir. Qaliblər hər bir nominasiya üzrə aşağıdakı qaydada pul mükafatları alacaqlar:

- 1-ci yer: 8000 ABŞ dolları;
- 2-ci yer: 6000 ABŞ dolları;
- 3-cü yer: 4000 ABŞ dolları;

- Həvəsləndirici mükafat: 2000 ABŞ dolları.

**1.9. Müsabiqənin məsul katibi**

1.9.1 Müsabiqənin məsul katibi:

- Müsabiqənin bütün iştirakçılarına Müsabiqə layihəsinin hazırlanması üçün ilkin materiallar da daxil olmaqla, həcm və məzmun baxımından eyni məlumat verilməklə bərabər məlumatlandırma şəraitini təmin edir;
- Proqram və Şərtlərdə nəzərdə tutulmuş tədbirlərin keçirilmə müddətlərinə riayət olunmasını təmin edir;
- Müsabiqə iştirakçılarının qeydiyyatını həyata keçirir;
- üç gündən gec olmamaqla Müsabiqə iştirakçılarının suallarını cavablandırır;
- Müsabiqə Proqramına və Şərtlərinə uyğun olaraq Ekspert Şurasının və Münsiflər heyətinin işini təmin edir;
- Müsabiqə Şərtlərinə uyğun olaraq müsabiqə layihələrinin təqdim edilmə müddətlərinə nəzarət edir;
- Ekspert Şurasının üzvləri ilə birlikdə Müsabiqəyə təqdim olunan layihələrin bu Proqram və Şərtlərdə müəyyən edilmiş tələblərə uyğunluğunun yoxlanılmasını təmin edir, bu tələblərə uyğun gəlmədiyi təqdirdə Ekspert Şurasının üzvlərinə məlumat verir;
- Ekspert Şurası tərəfindən müsabiqə layihələrinin təhlili və qiymətləndirilməsinin nəticələrini ümumiləşdirir və Münsiflər heyətinə təqdim edir, yekun nəticənin və Münsiflər heyətinin protokolunun layihəsini hazırlayır;
- Ekspert Şurasına və Müsabiqə münsiflərinə lazımi təşkilati köməklik göstərir.

1.9.2. Müsabiqə müddətində iştirakçıların anonimliyinə zəmanət verilir. Bu məqsədlə zəruri prosedurların yerinə yetirilməsinə Müsabiqənin Məsul katibi nəzarət edir.

1.9.3. Müsabiqənin Məsul katibinin əlaqə məlumatları: Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Beynəlxalq əməkdaşlıq və protokol şöbəsinin Protokol sektorunun müditi Səbinə İskəndərova, tel: (+99412) 493-34-67 (562), mob.: (+99450) 212 60 66.

Ünvan: AZ1014, Bakı şəhəri, Füzuli küç. 65,

Tel./Faks: (+99412) 493-34-67; (+99412) 498-14-14,

e-poçt: sabina.iskenderova@arxkom.gov.az

**1.10. Münsiflər heyətinin və Ekspert Şurasının işi**

1.10.1. Müsabiqənin Münsiflər heyətinin tərkibinə, 5 ekspert olmaqla, daxildir: Müsabiqə Təşkilatçısının, Azərbaycan Memarlar İttifaqının, Azərbaycan Memarlıq və İnşaat Universitetinin, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin və Azərbaycan Respublikasının Təhsil Nazirliyinin.

1.10.2. Münsiflər Heyətinin üzvlərinin işləri ictimai əsaslarla həyata keçirilir. Münsiflər heyətinin sədri münsiflərin ilk iclasında sadə səs çoxluğu ilə seçilir. Münsiflər heyətinin Müsabiqədə iştirakına icazə verilmir.

1.10.3. Müsabiqənin Məsul katibi müsabiqə iştirakçıları haqqında məlumatların məxfiliyini qorumaq öhdəliyi ilə Münsiflərin işində səsvermə hüququ olmadan iştirak edir.

1.10.4. Qalibləri müəyyən edən Münsiflər heyətinin qərarı çıxarılanadək Müsabiqə layihələrinə şifrələlər ilə baxılır.

1.10.5. Müsabiqənin Məsul katibi Ekspert Şurasının üzvləri tərəfindən imzalanmış yekun rəyi Münsiflər heyətinin sədrinə təhvil verir.

1.10.6. Müsabiqənin Münsiflər heyəti:

- Ekspert şurasının rəyi əsasında Müsabiqəyə qatılmaqla bağlı qərarlar qəbul edir;
- müsabiqə layihələrinə baxır;

- Müsabiqənin nəticələrinə dair qərar verərək Müsabiqəni yekunlaşdırır.

1.10.7. Münsiflər heyətinin iclasları qapalı rejimdə keçirilir. Müsabiqə iştirakçıları Münsiflərin iclaslarına qatıla bilməzlər.

1.10.8. Münsiflər heyəti, müsabiqə işlərinin baxışı nəticəsində ən yaxşı işləri müəyyən edir və onların müəllifləri pul mükafatı ilə təltif olunurlar.

1.10.9. Müsabiqənin Münsiflər heyəti, heyətin ən azı üçdə ikisi kvorum təşkil etməklə, sadə səs çoxluğu ilə yekun iclasda qərar qəbul edir. Səslərin bərabər olması halında Münsiflər heyəti sədrinin səsi həlledici sayılır.

1.10.10. Münsiflər heyətinin qərarı protokolla rəsmiləşdirilir. Münsiflər heyətinin qərarında müsabiqəyə təqdim edilmiş layihələrin bu Qaydaların 1.14-cü bəndində qeyd olunmuş layihələrin qiymətləndirilməsi meyarlarına uyğunluğunun qiymətləndirilməsi əks etdirilir.

1.10.11. Münsiflər heyəti iclasının protokolları və Ekspert şurasının yekun rəyi Müsabiqənin məsul katibi tərəfindən hazırlanır. Münsiflər heyətinin bütün üzvləri tərəfindən imzalanandan sonra bu qərar yekun hesab olunur və yenidən baxıla bilməz.

1.10.12. bu Şərtlər və Proqramın 1.8-ci bəndinə uyğun olaraq, Münsiflər heyətinin protokolu Müsabiqənin qaliblərinə pul mükafatlarının ödənilməsi üçün əsasdır.

1.10.13. Ekspert şurasına şəhərsalma və memarlıq layihələndirilməsi, nəqliyyatın planlaşdırılması, ekologiya və digər sahələrdə fəaliyyət göstərən aparıcı mütəxəssislər daxildir.

1.10.14. Ekspert şurası:

- təqdim olunan müsabiqə layihələrini təhlil edir və memarlıq təkliflərinin layihələndirmə praktikasında tətbiqinə uyğunluğunu qiymətləndirir;
- layihələrin müsabiqə layihələrinin qiymətləndirilməsi meyarlarına uyğunluğunu yoxlayır (1.14 bənd);
- təhlil nəticələrini hər layihə üçün yazılı rəy şəklində tərtib edir;
- Ekspert şurasının hər bir üzvünün rəyi nəzərə alınmaqla, müsabiqənin münsiflər heyəti tərəfindən baxılması üçün Yekun nəticəni təqdim edir.

Müsabiqə layihələrinin ekspert qiymətləri tövsiyə xarakteri daşıyır.

**1.10.15. Münsiflər heyətinin tərkibi**

| Münsiflər heyəti | Ad, soyad, ata adı | Vəzifə |
|---|---|---|
| Münsiflər heyətinin sədri | Elbay Ənvər oğlu Qasımzadə | Azərbaycan Memarlar İttifaqının sədri |
| Münsiflər heyətinin üzvləri | Gülçöhrə Hüseyn qızı Məmmədova | Azərbaycan İnşaat və Memarlıq Universitetinin rektoru |
| | İlqar Aydın oğlu İsbatov | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini |
| | Anar Ədalət oğlu Axundov | Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin rəisi |
| | Müsədin Namazov | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin “Azərdövlətlayihə” Dövlət Baş Layihə İnstitutunun direktoru |

**1.10.16. Ekspert şurasının tərkibi**

| Ekspertlər | Ad, soyad, ata adı | Vəzifə |
|---|---|---|

| | | |
|---|---|---|
| | Elşad Atamoğlan oğlu Məhərrəmov | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin “Azərdövlətlayihə” Dövlət Baş Layihə İnstitutunun Baş memarı |
| | Alxas Feyruz oğlu Mahmudov | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Memarlıq şöbəsinin müdiri vəzifəsini icra edən |
| | Cahangir Cavanşir oğlu Məmmədrzayev | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Bakı Dövlət Layihə İnstitutunun direktor müavini |

**1.11. Müsabiqə iştirakçılarının qeydiyyatı**

1.11.1. Müsabiqə iştirakçıları Müsabiqənin Şərtləri və Proqramına əlavə edilən Qoşma 1 və Qoşma 2-yə uyğun olaraq qeydiyyat formasını dolduraraq qeydiyyatdan keçməlidirlər.

1.11.2. Qeydiyyat forması Müsabiqənin Məsul katibinin elektron ünvanına göndərilir, mövzu bölməsində **“MDB üzv dövlətlərində gənc memarların iştirakı ilə memarlıq və şəhərsalma müsabiqəsi”** qeyd edilməlidir.

1.11.3. Qeydiyyat üçün ödəniş nəzərdə tutulmur.

**1.12. Müsabiqə layihələrinin tərtibinə dair tələblər**

1.12.1. Müsabiqə layihəsinin bütün materialları Müsabiqə iştirakçısı tərəfindən sərbəst olaraq formalaşdırılan 6 ərəb rəqəmindən ibarət şifrə ilə qeyd olunmalıdır. Müsabiqə layihəsinin şifri hər bir planşetin ön tərəfində sağ üst küncdə, izahat yazısının tutul vərəqində USB fləş yaddaşda (materialların şəxsən göndərilməsi zamanı) yerləşdirilir.

1.12.2. Müsabiqə layihəsinin bütün materialları ən azı 300 dpi çözünürlük ilə, hər bir faylın ölçüsü 100 MB-dan çox olmamaqla PDF / JPG elektron formatda təqdim edilməlidir.
İzahat yazısını Microsoft Word mətn redaktoru formatında verilə bilər.

**1.13. Müsabiqə layihələrin təqdim edilməsi qaydası**

1.13.1. Müsabiqə layihələri təşkilatçının ünvanına (Bakı şəhəri, AZ 1014, Füzuli küç., 65) göndərilir və ya müsabiqə iştirakçısı tərəfindən şəxsən çatdırılır. MDB ölkələrindən olan iştirakçılar layihələri həmçinin sabina.iskenderova@arxkom.gov.az e-poçt ünvanına göndərə bilər. Bu barədə təşkilatçıya teleqram və ya digər mövcud əlaqə vasitələri ilə məlumat verilməlidir. Bildirişdə iştirakçının qeydiyyat nömrəsi və tarixi göstərilməlidir.
Elektron daşıyıcılarda verilən və e-poçt ilə göndərilən materiallar iki qovluqda formalaşdırılır.
**Birinci qovluq** ≪[şifr]-Project≫ müsabiqə layihələrinin materiallarını ehtiva edir:

- planşetlərin qrafik faylları (ümumi formalaşdıra);
- izahat yazısı.

**İkinci qovluq** ≪[şifr]-Info≫ yaradıcı kollektiv haqqında məlumatları ehtiva edir:

- iştirakçı/yaradıcı kollektiv haqqında təhsil, iş təcrübəsi, əsas layihələr və s. məlumatları göstərilməklə qısa məlumat (1000 çap işarəsi olmaqla);
- iştirakçının/yaradıcı kollektiv üzvlərinin fotoşəkilləri (hər bir faylın adı iştirakçının soyadını daşımalıdır);
- yaradıcı kollektivin rəhbərinin məlumatları:
- soyad, ad, ata adı;
- pasportun əsas və qeydiyyat olan səhifələrinin surəti;

- sənədlərin surəti: bank rekvizitləri (bankdan pul köçürmələri üçün zəruri məlumatları ehtiva edən tam rekvizitləri əks etdirən Bank arayışı);
- yaradıcı kollektivin hüquqi ünvanı (əgər varsa);
- əlaqə nömrəsi və elektron poçt ünvanı.

Müsabiqədə yaradıcı kollektiv iştirak etdiyi zaman, göstərilən məlumatlar iştirakçıların biri tərəfindən verilir. Layihə müəlliflər kollektivi tərəfindən hazırlanırsa, müəlliflər arasında mümkün mükafatın faizlə bölüşdürülməsini göstərən, müəlliflər tərəfindən imzalanan müqavilə əlavə olunur.

Bütün faylların adlarında müsabiqə iştirakçısının şifri olmalıdır.

***Layihə planşetində, layihənin qrafik faylında, izahat yazısında, həmçinin layihə fayllarının adlarında iştirakçıların şəxsi məlumatlarının göstərilməsinə icazə verilmir.***

1.13.3. İştirakçıların şəxsi məlumatları olan zərf, Münsiflər heyətinin bu Şərtlərin 1.8-ci bəndinə uyğun olaraq pul mükafatı ilə təltif etmə qərarı əsasında açılır.

1.13.4. Bu Şərtlərin 1.7-ci bəndinə uyğun olaraq təqdim edilmə müddətindən sonra alınan müsabiqə layihələrinə baxılmır.

1.13.5. Müsabiqə layihəsinin məzmunu, tərkibi və tərtibi ilə bağlı tələblərə uyğunluğu Ekspert şurasının bu Şərtlərə uyğun hazırlanmış ümumi rəyi ilə təsdiqlənir. Bu Şərtlərdə göstərilən müsabiqə layihələrinin tərkibi və tərtibinə dair tələblər yerinə yetirilmədikdə, Münsiflər heyətinin qərarı ilə layihə Müsabiqədə iştiraka buraxılmır.

**1.14. Müsabiqə layihələrin qiymətləndirmə meyarları**

Ekspert şurasının üzvləri (bu Şərtlərin 1.10.16-cı bəndi) təqdim olunan müsabiqə layihələrinə baxır və aşağıdaki meyarlara uyğunluğunu 0-10 ballıq sistem ilə qiymətləndirir:

- Müsabiqə Şərtləri və proqramına uyğunluq;
- ictimai məkan sistemlərinin inkişaf konsepsiyasının aydınlığı və bütövlüyü, əhalinin cəlb edəcək mərkəzləri birləşdirən ideyanın tamlığı;
- inkişaf etmiş və təhlükəsiz piyada əlaqələri və yaşıl məkanlar sisteminin yaşayış məntəqəsi ərazisinin ümumi əlaqələndirmə sisteminin tərkibinə daxil edilməsi;
- memarlıq və dizayn həllərinin yeniliyi;
- təklif olunan həllərin aktuallığı (təklif olunan həllərin nə dərəcədə humanist fərqli şəhər mühiti, materialların ekoloji uyğunluğu tələbləri haqqında müasir təsəvvürlərə uyğunluğu);
- Müsabiqə tapşırıqlarından çıxış edərək layihənin tətbiq edilməsinin mümkünlüyü;
- layihənin aydın və ifadəli şəkildə təqdimatı.

**1.15. Müsabiqə nəticələrinin yekunu**

1.15.1. Müsabiqənin qaliblərinin mükafatlandırılması mərasimi, Münsiflər heyəti protokolu imzaladıqdan sonra Müsabiqənin nəticələri yekunlaşdığı gün Müsabiqənin təşkilatçısı tərəfindən videokonfrans formatında keçirilir. Mərasimin keçirilmə yeri və vaxtı haqqında məlumatlar Müsabiqə təşkilatçısının rəsmi internet səhifəsində yerləşdirilir.

1.15.2. Müsabiqənin Məsul katibi, Müsabiqə iştirakçılarına Müsabiqənin nəticələri haqqında məlumatı Münsiflər heyətinin iclasının protokolunun imzalanmasından sonra 10 iş günündən gec olmayaraq yazılı formada və ya elektron poçtla göndərir.

1.15.3. Müsabiqənin nəticələri haqqında məlumatlar, Münsiflər heyətinin iclasının protokolunun imzalanmasından sonra üç gün ərzində Müsabiqənin təşkilatçısının rəsmi internet səhifəsində də dərc olunur.

1.15.4. Müsabiqənin Münsiflərinin heyətinin iclas protokolunun əsli Komitənin Maliyyə və satınalmalar şöbəsinə təqdim olunduqdan sonra, Münsiflər iclasının imzalanmış protokolu əsasında, Müsabiqənin təşkilatçısı tərəfindən bu Şərtlərin 1.8-ci bəndində müəyyən edilmiş məbləğdə pul mükafatları ideya orijinallığı nümayiş etdirən qalib müəlliflərə 20 iş günü

ərzində köçürlür. Pul mükafatı, mövcud qanunvericiliyə uyğun olaraq mükafat məbləğindən vergi məbləği tutulmaqla ödənilir.
Müsabiqədə yaradıcı kollektiv iştirak etdikdə, mükafat kollektivin rəhbərinə ödənilir.

**1.16. Müəlliflik hüququ**

Müsabiqə çərçivəsində Müsabiqənin qalibləri, layihələrdən istifadə etmək hüququnu təşkilatçıya ötürürlər. Bu hüquqlar İştirakçı tərəfindən istifadə müddəti və ərazisi məhdudlaşdırılmadan Təşkilatçıya verilir. Təşkilatçı müsabiqənin nəticəsini qismən və ya tam şakildə öz məqsədləri üçün istifadə etmək hüququnu özündə saxlayır. Müəllif hüquqları yalnız müsabiqə müddətində saxlanılır.

**1.17. Müsabiqənin statusu**

Müsabiqə təqdimat tədbiridir, Azərbaycan Respublikasının Mülki Məcəlləsi çərçivəsində hərrac deyil.

**1.18 Müsabiqənin rəsmi dili**

Rus dili

***Qoşma 1***
Qeydiyyat forması

**MDB üzv dövlətlərinin gənc memarlarının açıq memarlıq və şəhərsalma müsabiqəsi iştirakçısının Qeydiyyat Forması**

| | |
|---|---|
| Müsabiqə iştirakçısının şifri | |
| İştirakçının adı, soyadı, ata adı | |
| Yaradıcı kollektiv iştirakçılarının adı, soyadı, ata adı (mövcud olduqda): | |
| Yaradıcı kollektiv rəhbərinin adı, soyadı, ata adı (mövcud olduqda): | |
| Təşkilatın adı (mövcud olduqda): | |
| Məsul katiblə qarşılıqlı əlaqə üçün iştirakçının adı, soyadı, ata adı: | |
| E-poçt: | |
| Doğum tarixi: | |
| Əlaqə telefonu: | |
| Şəxsiyyəti təsdiq edən sənədin növü | |
| Şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi | |
| Yaşayış (qeydiyyat) ünvanı, poçt indeksi göstərilməklə. | |
| Alanın bankının tam adı | |
| Alanın hesabı: | |
| Əmanət kitabçasının ilk səhifəsinin və ya kartın nömrəsi | |
| Alanın bankının identifikləşdirmə kodu | |
| Alanın bankın müxbir hesabı | |

Mən bütün şərtləri və qaydaları qəbul edirəm və məlumatlıyam ki, mənim tərəfimdən görülən iş Müsabiqənin təşkilatçısına məxsusdur. Təqdim etdiyim bütün məlumatların doğruluğunu təsdiq edirəm.

İştirakçının adı, soyadı, ata adı:«____»«____________» il. «________________________»
(tarix) (imza açıqlama ilə)

***Qoşma 2***
Şəxsi məlumatların işlənilməsinə razılıq

**Şəxsi məlumatların işlənilməsinə razılıq**

Mən, ____________________________________________ ____________
(ad, soyad, ata adı) (doğum tarixi)

______________________________________________________________________
(şəxsiyyəti təsdiq edən sənədin növü, seriyası, nömrəsi, verilmə yeri və tarixi)

______________________________________________________ qeydiyyat ünvanında,
(daimi qeydiyyat ünvanı)

Bu sənəd ilə Azərbaycan Respublikası Şəhərsalma və Arxitektura Komitəsinə aşağıdakı şəxsi məlumatların işlənməsi üçün razılığımı verirəm, ünvan: Füzuli küç., 65, Bakı, AZ1014:

- ad, soyad, ata adı;
- şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi, sənədi verən orqan və qeydiyyat haqqında məlumat;
- doğum yeri və tarixi;
- yaşayış ünvanı, telefon nömrəsi (həmçinin mobil nömrə), elektron poçt ünvanı;
- VÖEN, bank rekvizitləri hesabı (mükafatın köçürülməsi üçün) təhsil və peşakar fəaliyyət haqqında məlumat;
- fotoşəkil;
- açıq memarlıq şəhərsalma müsabiqəsində iştirak üçün tələb olunan digər məlumatlar

Razılıq tərəfimdən aşağıdakı məqsədlər üçün verilir:

- müsabiqədə iştirak;
- Müsabiqənin nəticələrinə əsasən statistik və analitik hesabatların hazırlanması, məlumat materiallarının hazırlanması, çap materiallarının nəşri, "İnternet" informasiya və telekommunikasiya şəbəkəsində Müsabiqə haqqında, o cümlədən onun iştirakçıları və qalibləri haqqında məlumatların yerləşdirilməsi;
- Müsabiqə iştirakçılarının məlumatlandırılması;
- mükafatın köçürülməsi.

Bu razılıq, şəxsi məlumatların avtomatlaşdırma vasitələrinin istifadəsi ilə və ya yığım, qeyd etmə, sistemləşdirmə, toplama, saxlama, aydınlaşdırma (yenilənmə, dəyişdirilmə), istifadə, verilmə, ötürmə (transsərhəd yayım), şəxssizləşdirmə, bloklama, şəxsi məlumatların məhv edilməsi daxil olan vasitələrdən istifadə edilmədən yuxarıda qeyd olunan məqsədlərə uyğun şəkildə emalı üçün verilir.

Bu razılıq 12 ay müddətinə verilir və imzalandığı andan qüvvəyə minir.

Razılıq istənilən vaxt şəxsi məlumatların subyekti tərəfindən yazılı ərizə əsasında ləğv edilə bilər.

«____» «____________________» il. «________________________»
(tarix) (imza açıqlama ilə)

*Qoşma 3*

## “MDB ölkələri üzrə gənc memarların iştirakı ilə memarlıq və şəhərsalma müsabiqəsi”nin Şəhərsalma nominasiyası üzrə

## Layihə tapşırığı

| № | Əsas məlumatların və tələblərin siyahısı | Əsas məlumat və tələblər |
|---|---|---|
| 1. | Tədbirin keçirilməsi üçün əsas | MDB dövlətlərinin Hökumət Başçıları Şurasının 29.05.2020-ci il tarixində “2021-ci ildə Müstəqil Dövlətlər Birliyi ölkələrində memarlıq və şəhərsalma ilinin keçirilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsinə dair qərarı |
| 2. | Sifarişçi | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 3. | Müsabiqənin mövzusu | 500 ailəlik nümunəvi kənd yaşayış məntəqəsinin layihələndirilməsi |
| 4. | Planlaşdırılan ərazinin əsas göstəriciləri: | |
| | - planlaşdırılan ərazi | planlaşdırılan ərazinin mövqe planı əlavə edilir |
| | - planlaşdırılan ərazinin sahəsi | 200 ha-dək |
| | - planlaşdırılan ərazinin əhalisi | 2000 nəfər |
| | - planlaşdırılan ərazinin təbii-iqlim şəraitinin qısa təsviri | Planlaşdırılan ərazi 4-cü iqlim zonasında Baltik dənizi səviyyəsindən 300-400 metr yüksəklikdə yerləşir.<br>Yağıntıların orta illik miqdarı il ərzində 488 mm, buxarlanma isə 899 mm təşkil edir.<br>Külək rejimi orta sürətli qərb, il boyu şimal-qərb və şimal, ən az müşayət olunan şimali-şərq və şərq küləkləri ilə xarakterizə olunur. Küləyin orta illik surəti 1,9 m/san-dir. |
| 5. | Layihə ərazisi üzrə yaşayış evləri və torpaq sahələrinin ölçülərinə dair tələblər | Kənd ərazisində həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri (*2, 3, 4 və 5 otaqlı*) nəzərdə tutulmalıdır.<br>Həyətyanı sahələrin ölçüləri hər bir ailə təsərrüfatı üzrə 1200 $m^2$ torpaq sahəsi qəbul edilməlidir. |

| | | |
|---|---|---|
| 6. | Müsabiqə iştirakçısı tərəfindən təqdim ediləcək materiallar və onlara dair tələblər | Müsabiqə materialları (*qrafik materiallar və izahat yazısı*) aşağıdakı tərkibdə İcraçı tərəfindən Sifarişçiyə təqdim olunur:<br>**<u>1. Qrafik materiallar:</u>**<br>✓ kəndin baş planı, M 1:1000;<br>✓ kəndin mərkəz hissəsinin memarlıq planlaşdırma həlli, M 1:500;<br>✓ küçələrin en kəsikləri, M 1:100;<br>✓ bir ailə-ev təsərrüfatı üçün həyətyanı sahənin planlaşdırma həlli (nümunəvi həllər), M 1:100.<br>Kəndin baş plan layihəsində müvafiq infrastruktur və xidmət obyektləri (uşaq bağçası, məktəb, tibb məntəqəsi, aptek, inzibati bina, klub (*icma mərkəzi*), ticarət və iaşə obyektləri, bazar, rabitə şöbəsi və sair) nəzərdə tutulmalıdır.<br>Cizgilər (A1 formatında) yerinə yetirilir.<br>**<u>2. İzahat yazısı:</u>**<br>İzahat yazısı A4 formatda tərtib edilməlidir (*arial, 12 şrifti ilə* 1,5 intervalda). İzahat yazısında layihələndirilən ərazinin memarlıq-planlaşdırma həlli haqqında məlumat və əsas texniki-iqtisadi göstəricilər (*bax cədvəl 1)* qeyd olunmalıdır. Kənd iqtisadiyyatının inkişaf prioritetlərinə dair layihə təklifləri verilməlidir. Ərazinin mühəndis təchizatı, o cümlədən alternativ enerji mənbələri *("yaşıl enerji")* üzrə layihə təklifləri verilməlidir.<br>Müsabiqənin xarici iştirakçıları təqdim ediləcək materialları elektron formatda (JPG və PDF) Sifarişçiyə təqdim edə bilər. |
| 7. | Binaların bədii tərtibatı, həcm-fəza həlləri üzrə tələblər | Memarlıq-planlaşdırma həllərinə dair zəruri 3d görünüşlər və ya digər qrafik həllər sərbəst ölçüdə və həcmdə verilə bilər.<br>Əsas küçələr boyu və mərkəzdə fasadların açılışı (*sərbəst miqyasda*) göstərilməlidir. |
| 8. | Layihənin son təqdimat tarixi | 20.10.2021 Bakı vaxtı ilə 18:00 |
| 9. | Müsabiqə nəticələrinin elanı | 10.11.2021-ci ilədək Komitənin rəsmi saytında www.arxkom.gov.az |

**Cədvəl 1: Əsas texniki-iqtisadi göstəricilər**

| № | Göstəricilərin adı | Ölçü vahidi | Layihə üzrə |
|---|---|---|---|
| 1. | Layihələndirilən ərazinin sahəsi | ha | |
| 2. | Əhalinin sayı | nəfər | |
| 3. | Əhalinin sıxlığı | nəfər/ha | |
| 4. | Bina və qurğuların tikinti sahəsi | $m^2$ | |
| 5. | Bina və qurğuların bütün yerüstü mərtəbələrinin sahəsi | $m^2$ | |
| 6. | Xidmət obyektlərinin ümumi sahəsi, *o cümlədən təyinatlar üzrə ayrı-ayrılıqda göstərilməklə*<br>.... | $m^2$ | |
| 7. | Fərdi yaşayış evlərinin ümumi sayı | ədəd | |
| 8. | Fərdi yaşayış evlərinin ümumi sahəsi | $m^2$ | |
| 9. | Küçə-yol şəbəkəsinin uzunluğu | km | |
| 10. | Ümumi istifadəli yaşıllıqların sahəsi | $m^2$ | |
| | *o cümlədən adambaşına düşən yaşıllıq sahəsi* | $m^2$ | |



Planlaşdırılan kənd yaşayış məntəqəsinin mövqe planı
1:50000
Rayon mərkəzi olan şəhərə məsafə - 15 km
Ən yaxın dəmir yolu stansiyasına məsafə - 25 km
Planlaşdırılan ərazinin layihə sərhədi
Respublika əhəmiyyətli yollar
Digər yollar
Çaylar
Planlaşdırılan ərazi
Qəbiristanlıq

*Qoşma 4*

## “MDB ölkələri üzrə gənc memarların iştirakı ilə memarlıq və şəhərsalma müsabiqəsi”nin Memarlıq nominasiyası üzrə
## <u>Layihə tapşırığı</u>

| № | Əsas məlumatların və tələblərin siyahısı | Əsas məlumat və tələblər |
|---|---|---|
| 1. | Tədbirin keçirilməsi üçün əsas | MDB dövlətlərinin Hökumət Başçıları Şurasının 29.05.2020-ci il tarixində “2021-ci ildə Müstəqil Dövlətlər Birliyi ölkələrində memarlıq və şəhərsalma ilinin keçirilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsinə dair qərarı |
| 2. | Sifarişçi | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 3. | Müsabiqənin mövzusu | Çoxfunksiyalı təyinata malik müasir təhsil və sosial mərkəzin layihəsi |
| 4. | Layihəyə dair əsas göstəricilər: | |
| | - planlaşdırılan ərazi | 4-cü iqlim zonasında Baltiki dənizi səviyyəsindən 300-400 metr yüksəklikdə yerləşən kənd yaşayış məntəqəsi |
| | - layihələndirilən obyektin xidmət kontingenti | ✓ 120 nəfərədək məktəbəqədər yaşlı uşaqlar;<br>✓ 360 nəfərədək məktəb yaşlı uşaqlar;<br>✓ 2000 nəfərədək kəndin ümumi əhalisi. |
| 5. | Layihə obyektinə dair tələblər | ✓ Mərtəbəlilik üzrə tələblər: 3 mərtəbədən çox olmamaqla<br>✓ Müasir məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar (uşaq, gənclər, idman və yaradıcılıq), habelə sosial (tədris kursları, tematik klublar, kitabxana, poçt xidmətləri və sair) müəssisələrinin fəaliyyətini təmin edəcək bina və ya binalar kompleksi. |
| 6. | Müsabiqə iştirakçısı tərəfindən təqdim ediləcək materiallar və onlara dair tələblər | Müsabiqə materialları (*qrafik materiallar və izahat yazısı*) aşağıdakı tərkibdə İcraçı tərəfindən Sifarişçiyə təqdim olunur:<br>**<u>1. Qrafik materiallar:</u>**<br>✓ Baş plan, M1:500;<br>✓ Bina və ya binaların planları, M1:100;<br>✓ Binaların en kəsikləri, M1:100÷1:200;<br>✓ Fasad görünüşləri, M1:50÷1:100;<br>✓ 3D formatında görünüşlər;<br>✓ Funksional texnoloji sxem, sərbəst miqyasda.<br>✓ Cizgilər (*A1 formatında*) AutoCAD proqram təminatı bazasında yerinə yetirilir;<br>**<u>2. İzahat yazısı:</u>**<br>İzahat yazısı A4 formatda tərtib edilməlidir (*arial, 12 şrifti ilə 1,5 intervalda*). İzahat yazısında layihələndirilən obyektin memarlıq- |

| | | |
|---|---|---|
| | | planlaşdırma həlli və əsas texniki göstəriciləri haqqında məlumat qeyd olunmalıdır.<br>Müsabiqənin xarici iştirakçıları təqdim ediləcək materialları elektron formatda (JPG və PDF) Sifarişçiyə təqdim edə bilər. |
| 7. | Layihənin son təqdimat tarixi | 20.10.2021-ci il |
| 8. | Müsabiqə nəticələrinin elanı | 10.11.2021-ci ilədək Komitənin rəsmi saytında www.arxkom.gov.az |